**AZƏRBAYCAN RESPUBLİKASI**

**MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**F.KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**
**ELMİ-METODİKA ŞÖBƏSİ**



**Böyük mütəfəkkir Əli bəy Hüseynzadənin**
**150 illik yubileyi münasibətilə**

# “Türk dünyasının böyük ideoloqu”

# (metodiki vəsait)

**B A K I – 2014**

## Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2014-cü ilin fevral ayında Azərbaycan ictimai fikrinin görkəmli nümayəndəsi, tanınmış maarifçi və yazıçı-publisist Əli bəy Hüseynzadənin anadan olmasının 150 illiyi tamam olur.

Türk xalqlarının mədəni inteqrasiyasının məfkurə kimi təşəkkül tapmasında mühüm rol oynayan, müasir cəmiyyət quruculuğunda demokratik prinsiplərin ənənəvi dəyərlər zəminində bərqərar olmasının vacibliyini irəli sürən və müstəqil milli dövlətçiliyin nəzəri əsaslarının işlənib hazırlanmasında yaxından iştirak edən, eləcə də çoxşaxəli fəaliyyəti boyunca yaratdığı zəngin fəlsəfi-publisistik, ədəbi-elmi irsi sayəsində Azərbaycan maarifçiliyi tarixinə qiymətli töhfələr verən görkəmli ictimai xadim Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə, Azərbaycan Yazıçılar Birliyinin təklifləri nəzərə alınmaqla, Əli bəy Hüseynzadənin 150 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 21 yanvar 2014-cü il.

# G İ R İ Ş

**“Mən türkəm, qafqazlı bir türkəm, türk bir müsəlmanam, müsəlman bir insanam, demək ki, mən bu dörd sifətlə dünyaya gəldim, bu dörd sifətlə yaşamaq məcburiyyətindəyəm...”**

**Əli bəy Hüseynzadə**

Əli bəy Hüseynzadə XX əsrin əvvəllərində türk dünyasında şimşək kimi çaxdı, təkcə Azərbaycanda deyil, bütün Turan elində ictimai fikrin durumuna aydınlıq gətirdi, onu yeni istiqamətə yönəltdi, ətalətdən, qəflət yuxusundan, zülmətdən uzaqlaşdırmağa, həmrəyliyə, birliyə əsaslanan istiqlal yoluna xidmət etməyə yönəltdi. Məhz bu mənada Əli bəy Hüseynzadə Azərbaycan ictimai fikrində yeni mərhələdir.

Əli bəy Hüseynzadə milli özünüdərkin və istiqlal düşüncəsinin yaradıcısı idi. O, Şərq ölkələrini Rusiyanın və İranın güclənməkdə olan millətçilik siyasəti caynağından xilas etməyin yolunu türkçülüyün yayılmasında görürdü. O, Turan elini yad, mürtəce cərəyanlardan xilas etmək üçün türk ideologiyasını yaymağa çalışırdı. Əli bəy Hüseynzadə türk dünyasının mücahidi idi. Baş redaktorluğu ilə 1906-1907-ci illərdə nəşr etdiyi “Füyuzat” yurnalı taleyin və tarixin ona verdiyi vəzifənin, həyat qayəsinin məramnaməsi idi. “Füyuzat”ın məzmunu və ideya istiqaməti mütəfəkkir alim Əli bəy Hüseynzadənin türkçülük məfkurəsi yolunu işıqlandırır. Onun siyasi, fəlsəfi və ədəbi düşüncələrini dərk etməyə imkan verir. “Füyuzat” yurnalı XX əsr Azərbaycan ictimai fikrində yeni fəlsəfi cərəyanın təməlini qoymuşdur. Əli bəy Hüseynzadəni əfsanəvi, fövqəlbəşər mütəfəkkir adlandıran müasiri Y.Akçuraoğlu yazırdı: “Əli bəy dövrünün həmfikri olan ziyalılarını (Məhəmməd Hadi, Abbas Səhhət, Abdulla Şaiq, Hüseyn Cavid və b.) məcmuənin ətrafina toplayaraq yaradıcılıqlarına ciddi bir qayğı ilə yanaşır, təsir göstərir, onların dünyagörüşlərində milli düşüncəni oyadırdı”.

Məşhur tədqiqatçı alim Tadeuş Svyataxovski yazırdı: “XX əsrin əvvəllərində türk xalqlarına kimliyini bildirən bir nəfər var idi. O da Əli bəy Hüseynzadə idi”. Əli bəy Hüseynzadəni milli məfkurənin uçuruma getdiyi bir vaxtda Allah-Taala doğma xalqına xilaskar kimi bəxş etmişdir. Türk qövmünün ona böyük ehtiyacı vardı. O, öz təlimi ilə, Ə. Müznib demişkən, “millətinə milliyyətini anlatdı... Qafqazdakı türk balalarına türklüyü bildirdi, həsəbnəsəbini öyrətdi”.

Əli bəy Hüseynzadə bütün türk dünyasının mücahididir". Türkləşmək məqamı Əli bəy Hüseynzadənin nəzəri doktrinası idi. O, qəti inamla yazırdı: "O millət, o qövm səadət və nicat tapa bilər ki, öz qövmiyyətini, dilini, dinini, tarixini, adət və əxlaqını öyrənir".

Əli bəy Hüseynzadə türkçülük ideologiyasının mənəvi prinsipi islamlaşmaq məramı haqqında danışarkən tövsiyə edirdi ki, Qurani-Kərim bütün müsəlman xalqlarının dilinə tərcümə edilib yayılsın. Ona görə ki, İslam dini türk birliyinin, milli mədəniyyətlərinin ən əxlaqi sağlamlığının təməlidir. "Allahını tanıyan millət, milli birliyini də dərk edəcəkdir".

Qeyd etdiyimiz kimi, Əli bəy Hüseynzadə azərbaycançılıq ideyasının ilk yaradıcısı idi. O öz ədəbi, ictimai-siyasi fəaliyyəti ilə milli ədəbiyyata yenilik gətirir, onu məhdud çərçivədən çıxarmağa çalışırdı.

Əli bəy Hüseynzadənin yaradıcılığı gəncliyə güclü təsir göstərirdi. O, Abdulla Şaiq demişkən, "bir beyt belə yazmamış" Məhəmməd Hadi kimi istedadlı gənclərin "rübabını dinləndirir", onlara şeir və sənətin nə olduğunu anladırdı.

1920-ci illərdən sonra sovet şovinist ideya konsepsiyası çərçivəsinə sığmayan ictimai-siyasi fəaliyyətinə görə Əli bəy Hüseynzadəni "mürtəce ideoloq", "xalq düşməni" adlandıran və doğma vətənində siyasi-ədəbi irsinin tədqiqinə və nəşrinə qadağa qoyanlar böyük vətənpərvəri unutdura bilmədilər.

Zaman öz hökmünü verdi. Sovet hakimiyyətinin 70 illik hökmranlığına son qoyuldu. Azərbaycanda müstəqillik bərpa olundu. Milli-mənəvi sərvətlərə, tarixi hadisələrə real münasibət yarandı. Məlum oldu ki, Ə.Hüseynzadə bütün varlığı ilə millətinə bağlı, vətəninin müstəqilliyi, azadlığı uğrunda döyüşən mübariz azərbaycanlı imiş...Ə.Hüseynzadə əsrin əvvəllərində nəinki Rusiya müsəlmanları içərisində, həm də bütün türk dünyasında milli-azadlıq hərəkatının genişlənməsində, milli şüurun oyanmasında, tərəqqiyə əngəl olan hər cür təzahürlərin aradan götürülməsində böyük xidmətlər göstərən bu yolda bütün çətinliklərə mətanətlə sinə gərən, qeyrətli vətəndaş, mübariz tribun imperializm əsarətinin güclü əleyhdarı, amansız və qətiyyətli düşməni olmuşdur".

Əli bəy Hüseynzadə müasirimizdir. Onun müdrik tövsiyələri, bəşəri ideyaları bu gün də həmvətənlərinə milli birlik uğrunda mübarizədə yardımçı olur.

Bütün türk dünyasında yazıçı, publisist və siyasi xadim kimi tanınan Əli bəy Hüseynzadənin zəngin irsi doğma vətənində dərindən-dərinə öyrənilir, əsərləri nəşr olunur, adı əbədiləşdirilir. Onun baş mühərriri olduğu "Füyuzat" yurnalı yeni biçimdə nəşr edilir və müstəqil Azərbaycanın açıqfikirli, fədakar övladlarının tribunasına çevrilmişdir.

Azərbaycanın mütəfəkkir yazıçısı və ictimai-siyasi xadimi Əli bəy Hüseynzadə bütün türk dünyasında həmişə azadlıq mücahidi kimi yad ediləcəkdir.

# I BÖLMƏ:

## HƏYAT VƏ YARADICILIĞI:

Ziddiyyətli ömür yolu keçmiş, Kəlküttədən tutmuş Parisə qədər, Qahirədən Peterburqa kimi geniş bir ərazidə tanınmış Əli bəy Molla Hüseyn oğlu Hüseyzadə 1864-cü ildə Azərbaycanın qədim şəhərlərindən biri olan Salyanda anadan olmuşdur. Tiflisdə Qafqaz müsəlman ruhani məclisinin məktəbində müəllim işləyən atası, hələ Əli bəy kiçik yaşlarında olduğu zaman vəfat etdiyi üçün, babasının himayəsində yaşamışdır. Əli bəyin babası Qafqaz şeyxülislamı Axund Molla Əhməd (1812-1887) din xadimi olmasına baxmayaraq, öz dövrünün görkəmli alimlərindən biri idi. O, 1870-ci ildə Tiflisdə litoqrafiya yolu ilə çap edilmiş "Dilguşə" və "Tərbiət-ül-Ətfal" kimi dünyəvi əsərləri ilə yanaşı, bir neçə dini kitabların müəllifidir. Molla Əhməd Azərbaycanda ilk dəfə olaraq illəri hicridən miladiyə çevirmək üçün sinxronik təqdim cədvəli hazırlamış və onu çap etdirmişdir. Bu şəxsin "Tarixi-ədəbiyyatı-türkü" adlı əlyazması halında əsəri də vardır. Molla Əhmədin ziyalı dostları arasında Mirzə Şəfi Vazeh, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundov və başqa görkəmli şəxsiyyətləri görmək mümkün idi. Bir sözlə gənc Əli bəy ziyalılar mühitində böyümüşdür.

İlk savadını da elə məhz atasının dərs verdiyi məktəbdə alan Əli bəy daha sonra təhsilini 1875-ci ildə 1-ci Tiflis gimnaziyasında davam etdirmişdir. O, rus dilini mükəmməl öyrənməklə yanaşı, əvvəlcə atasının və sonralar isə babasının vasitəsilə ərəb və fars dillərini də dərindən mənimsəmişdir.

1885-ci ildə gimnaziyanı bitirən Əli bəy təhsilini davam etdirmək üçün Peterburqa yola düşür. Onda rəssamlıq sənətinə güclü meyl olduğundan Peterburq bədii akademiyasına girmək qərarına gəlir. Bu barədə o, yazdığı məqalələrin birində qeyd etmişdir. Lakin özünün qeyd etdiyi kimi, dəqiq elmlərə həvəs daha da üstün gəldiyi üçün o, həmin ildə Peterburq universitetinin fizika və riyaziyyat fakultəsinə daxil olmuşdur. Və beləliklə, Peterburq həyatı Əli bəyin yaradıcılığında dərin izlər buraxmışdır.

Gənc Əli bəy fizika və təbiət fakultəsində oxumaqla yanaşı Şərq fakultəsində də məşhur professorların mühazirələrini daim dinləmişdir. Bu illərdə o, artıq latın, yunan, fransız, alman və ingilis dillərini də mükəmməl öyrənmişdi. Buna görə də

o, qədim yunan və Qərbi avropa şairlərinin, yazıçılarının və alimlərinin əksəriyyətini orijinaldan oxumuşdu.

1887-ci ildə Peterburqda rus çarı III Aleksandra edilən sui-qəsdən sonra Əli bəy Hüseynzadə Rusiyanı tərk etməyə məcbur olmuşdur. Bundan sonra Əli bəy Hüseynzadə təhsilini davam etdirmək üçün İstanbula üz tutmuşdur.

İstanbul darülfununun "Əskər tibbiyyə" fakultəsində təhsilini davam etdirən gənc Əli bəy tələbələr arasında öz istedadı ilə tez fərqlənmiş və Qərb fəlsəfəsini, ədəbiyyatını və mədəniyyətini tanıtdırmaqda aparıcı bir qüvvəyə çevrilmişdir. Onun bu sahədə parlaq istedadı hətta o dövrün qabaqcıl türk ziyalılarının da diqqətini özünə cəlb etmişdir.

İstanbul darülfünunu dermotoloq ixtisası üzrə bitirən Ə.Hüseynzadənin hərbi təbiətə o qədər də marağı olmamışdır. Onu o zamanlar yuxarıda qeyd etdiyimiz kimi, fəlsəfə, ədəbiyyat və siyasət maraqlandırmışdır. Elə buna görə də tibb elmi sahəsində əsərlərini barmaqla saymaq olar. Bunlardan "Siflis", "Vəba və mikrobu" adlı əsərləri xüsusilə qeyd etmək olar. Elə həmin ildə professor Kamal Cənabla birlikdə "Ensiklopedik tibb lüğəti" adlı kitabını İstanbulda çap etdirmişdir.

Əli bəy Hüseyzadə hətta İstanbulda bir rəssam kmi də şöhrət qazanmışdır. O, Azərbaycan yazıçısı Hacı Zeynalabdin Marağayinin "İbrahim bəyin-səyahətnaməsi" adlı əsərinə xüsusi sifarişlə şəkillər də çəkmişdir. Elə həmin dövrlərdə o, bir musiqiçi kimi də tanınırdı. Onun skripkada notla gözəl çalması da vardı. Türk musiqişünasları musiqinin təhlilində Əlibəy Hüseynzadəyə bəzən üstünlük verirdilər.

Hələ tələbə olduğu illərdə, yəni 80-ci illərin axırlarında Ə.Hüseynzadə "Ə.H." imzası ilə, İstanbulda nəşr olunan "Ramazan bağçası" yurnalında Ömər Xəyyamın bir neçə rübaisini və onun haqqında alman alimi F.Bondenştedtin əsərini, "Səlyani" imzası ilə B.Hötenin "Faust"undan bir parçanı, H.Heynenin "Zinət verər asimanə əncüm..." şeirini, Qahirədə çıxan "Türk" qəzetində isə XVIII əsr rus şairi Derjavinin bir şeirini tərcümə edib türk dilində çap etdirmişdir. Bunu da qeyd etmək lazımdır ki, bu tərcümələrin əksəriyyəti sonralar Əli bəy Hüseyzadə Bakıda "Füyüzat" yurnalının redaktoru olduğu zaman, yenidən həmin məcmuənin müxtəlif nömrələrində eynilə çap olunmuşdur.

1897-ci ildə Türkiyə ilə Yunanıstan arasında müharibənin başlanması ilə əlaqədar olaraq Əli bəy Hüseyzadə "Qırmızı aypara" cəmiyyətinin heyətinin tərkibində xüsusi tapşırıqla Qərbi Avropa ölkələrinə getmişdir. 1900-cü ildə isə o,

müsabiqə yolu ilə vaxtilə ali təhsil aldığı fakultədə, professor köməkçisi vəsifəsinə təyin olunmuşdur.

Qan içən Əbdülhəmid istibdadının təcavüzünə məruz qalan Əlibəy Hüseyzadə 1904-cü ilin əvvəllərində Parisə qaçmış və oradan Bakıya gəlmişdir. O, burada 1905-ci il iyunun 7-də maarifpərvər varlılardan olan Hacı Zeynalabdin Tağıyevin (1823-1924) vəsaiti ilə ilk nömrəsi çıxmağa başlamış "Həyat" qəzetinin Əhmədbəy Ağayevlə (1869-1939) birlikdə redaktoru olmuşdur. Əhmədbəy Ağayevin "İrşad" qəzetinə keçməsi ilə əlaqədar 1906-ci ilin yanvar ayından Əli bəy Hüseynzadə "Həyat" qəzetinin redaktorluğunu özü etmişdir. Onun bu qəzetin səhifələrində xeyli məqaləsi çap olunmuşdur. Bu məqalələrin hər birini nəzərdən keçirdikdə hiss olunur ki, O, Qərbin texniki, mədəni tərəqqisinin nailiyyətlərinə, fəlsəfəsinə, tarixi və sosioloji nəzəriyyələrinə yaxından bələd idi.

Əli bəy Heseynzadə redaktoru olduğu "Həyat" qəzetinin səhifələrində silsilə məqalələr çap etdirmişdir.

1906-cı ildən isə H.Z.Tağıyevin pulu və Əli bəy Hüseynzadənin redaktorluğu ilə həftəlik ədəbi, elmi, siyasi-ictimai jurnal olan "Füyuzat" nəşr olunmağa başlamışdı. Bu jurnalın baş və əksəriyyət məqalələrini Əli bəy Hüseyzadə özü yazmışdır. "Füyuzat" jurnalının səhifələrində məşhur türk şairləri ilə yanaşı, mütərəqqi dövlət xadimlərinin foto əksi və onlar haqqında məlumat dərc olunurdu.

O dövrdə yazıb-yaradan Azərbaycan şairləri və yazıçılarının əsərləri də bu yurnalın səhifələrində öz əksini tapmışdır. XX əsr məşhur romantik şairimiz Məhəmməd Hadinin şeirləri demək olar ki, "Füyuzat"ın hər nömrəsində çap olunmuşdur. Satirik şair Mirzə Ələkbər Sabirin də şeirlərini mütəmadi olaraq jurnalda görmək mümkün idi. Həmçinin bu jurnalda şair Hüseyn Cavidin, Səid Səlmasinin, Abdulla Şaiqin , Abbas Səhhətin, Əlipaşa Surun və başqalarının şeir və məqalələrinə də rast gəlmək mümkün idi.

"Füyuzat" jurnalının səhifələrində Qərbi Avropanın, Şekspir, Bayron, Şiller, Höte, Hüqo və s. bu kimi məşhur şair və yazıçıların haqqında yazılar da çap olunmuş və əsərlərindən tərcümələr də verilmişdir.

Əli bəy Hüseyzadə təsviri sənət tariximizi zənginləşdirəcək əsərlər yaratmaqla yanaşı, incəsənət haqqında qiymətli fikirlər də qoyub gedib.

Taleyin amansız hökmü ilə dünyanın müxtəlif guşələrinə səpələnmiş azərbaycanlılar arasında rəssamlar az deyil. Bir zamanlar ilğım saydıqları Vətən həsrəti uzun illər ərzində onlar  üçün acı həqiqətə çevrilib. Həmin sənətkarların bir

qismi hələ də bu ayrılığın mənəvi-psixoloji yükünü çəkə-çəkə arzu və ümidlərinin işığına doğru getməkdədirlər. Bəziləri isə artıq dünyasını dəyişmiş, nə vaxtsa hördükləri nikbin nəğmə çələngi imidsizlik axarına düşərək itib-batmışdır.

Yurd həsrətini həm də rənglərlə ifadə edən yaradıcılarımızdan biri də Əli bəy Hüseynzadə olmuşdur.

Əli bəy Hüseynzadə Bakıda yaşadığı dövrdə elmi-nəzəri, fəlsəfi əsərlərindən başqa bədii yaradıcılığa da əhəmiyyət vermişdir. Onun görkəmli rus yazıçısı A.P.Çexovun "Qlaflı adam" hekayəsinə nəzirə olaraq yazdığı povesti və "Siyasəti-fürusət" adlı iri həcmli traktatı mövcuddur. O, Bakıda yaşadığı dövrdə rəssamlıq sənəti ilə də məşğul olmuşdur. Onun yağlı boya ilə çəkdiyi saysız-hesabsız lövhələr o dövrdə sənət sevərlərin nəzər diqqətini özünə cəlb etmiş və bu boyalar Azərbaycan boyakarlıq sənətinin qiymətli örnəklərindən olmuşdur. Bu əsərlərdən "Şeyxül islamın portreti" və "Bibiheybət məscidinin görünüşü" adlı lövhələr indi də P.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyinin salonunu bəzəyir.

1910-cu ilin axırında Əli bəy Hüseynzadə Bakı ilə əbədi vidalaşaraq Türkiyəyə köçmüş və burada o, İstanbul universitetinin professoru vəzifəsində çalışmaqla yanaşı, elmi, ədəbi, siyasi fəaliyyətini də davam etdirmişdir. İstanbulda yaşadığı müddətdə Əli bəy Hüseynzadə ailə qurmuş və onun bir qızı, bir oğlu dünyaya gəlmişdir. Ali rəssamlıq təhsili alıb və çoxdan Parisdə yaşayan oğlu Turan indi də bir sənətkar rəssam kimi tanınmaqdadır.

Ə.Hüseynzadə işıqlı təfəkkürü, əlvan boyaları, cəsarətli qələmi ilə ölüm-dirim mübarizəsinə atılmışdır. Bu yolda onun başı çox bəlalar çəkir, lakin Əli bəy amalından heç bir zaman dönmür. Beləliklə, Əli bəy Hüseynzadə altmış altı il ömür sürür, rəssam, naşir, pedaqoq, alim, filosof kimi dünyadan köçür. Onun ömür günəşi 1940-cı il martın 1-də qüruba enir.

## II BÖLMƏ

## YUBİLEY TƏDBİRLƏRİNİN KEÇİRİLMƏSİ:

Tanınmış maarifçi və yazıçı-publisist Əli bəy Hüseynzadənin anadan olmasından 150 il ötür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi haqqında" 2014-cü il 21 yanvar tarixli Sərəncamında qeyd olunduğu kimi, türk xalqlarının mədəni inteqrasiyasının məfkurə kimi təşəkkül tapmasında mühüm rol oynayan, müasir cəmiyyət quruculuğunda demokratik prinsiplərin ənənəvi dəyərlər zəminində bərqərar olunmasının vacibliyini irəli sürən və müstəqil dövlətçiliyin nəzəri əsaslarının işlənib hazırlanmasında yaxından iştirak edən Əli bəy Hüseynzadə zəngin fəlsəfi-publisistik, ədəbi-elmi irsi ilə Azərbaycan maarifçiliyi tarixinə qiymətli töhfələr verib.

XX əsr Azərbaycan ictimai fikrinin görkəmli nümayəndəsi, türkçülük məfkurəsinin böyük carçısı, tanınmış ədib, publisist, maarifçi, rəssam və təbabət alimi Əli bəy Hüseynzadə şərəfli ömrünü türk millətinin, o cümlədən Azərbaycan xalqının milli oyanış və özünüdərkinə, istiqlala mücadiləsinə, maarif və mədəniyyətinin yüksəlişinə, milli dövlətçiliyin formalaşdırılmasına həsr edib.

Ümumiyyətlə, mənsubu olduğu millətin sevgisini ürəyində daşıyan insanlar üçün yaşadığı coğrafiyanın heç bir əhəmiyyəti yoxdur. Millətinin tamamı və ya bir hissəsi əgər çətinliyə düşübsə, xalqını sevən insan dünyanın lap o biri ucunda da olsa həmin yerə çatıb, əlindən gələn səyi göstərəcək. Uca türk millətinin sevgisini ürəyində daşıyan insanlar üçün də bu belədir.

Əli bəy Hüseynzadənin çoxşaxəli fəaliyyətinin təməlində turançılıq məfkurəsi də dururdu. O, türk xalqlarının milli birliyi, milli dövlətçilik ideyasını ilk dəfə irəli sürüb, onun elmi-nəzəri əsaslarını işləyib hazırlamışdır. 1905-ci il inqilabından sonra türkçülük məqamnaməsini "Həyat" qəzetində. "Füyuzat" yurnalında dərc etdiyi "Türkçülük kimdir və kimlərdən ibarətdir?", "Yazımız, dilimiz", "Türk dilinin vəzifeyi-mədəniyyəti" və digər məqalələrində geniş surətdə şərh edib.

***Eylər dili Çin səddinədək hökmünü icra,***

***Bir ucudur Altay bu yerin, bir ucu səhra.***

Ə.Hüseynzadə geniş yaradıcılıq doapazonuna malik mütəfəkkir alim və yazıçıdır. O, müxtəlif elm sahələrində çalışıb, tibbə, fəlsəfəyə, tarixə, siyasətə,

sosioloyiyaya, ədəbiyyatşünaslığa dair zəngin irs yaradıb. Onun geniş ədəbi-publisistik və elmi irsi Azərbaycan milli təfəkkürünün böyük nailiyyətidir.

Əli bəy Hüseynzadə çoxsahəli fəaliyyəti ilə Azərbaycan ədəbi-elmi fikir tarixində M.F. Axundovun ardınca yeni mərhələnin əsasını qoyub, "füyuzatçı" lar adlı orijinal ədəbi-fəlsəfi məktəb yaradıb. Onun əsərlərində təbliğ etdiyi "türkçülük, çağdaşlıq və islamiyyət" fəlsəfəsi Azərbaycanın üçrəngli bayrağının ideoloyi əsasını təşkil edir.

Beləliklə, həqiqətin böyüyünü deyərək qələmi ilə türk ilə əcəmi, millətini ayıltmağa çalışan, türk dünyasının düşünən, inaclı və mədəni qövmünü yaratmağın ideoloyi əsasını qoyan fikir dahisi Əli bəy Hüseynzadənin bu il 150 illik yubileyi dövlət səviyyəsində qeyd olunur. Bu münasibətlə respublikamızın bir çox təhsil müəssələrində, muzeylərdə, gimnaziyalarda, kitabxanalarda və s. yerlərdə Əli bəy Hüseynzadənin yubileyi ilə bağlı tədbirlər planı hazırlanmışdır. Tədbirlər planı geniş və maraqlı olsun deyə ilk növbədə F.Köçərli adına Respublika Uşaq Kitabxanasında sərgilərin təşkili məqsədəuyğundur. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: "Əli bəy Hüseynzadə-150", "Türk dünyasının böyük ideoloqu", "Həqiqət aşiqi", "Əli bəy Hüseyzadə və Azərbaycan mədəniyyəti", "Əli bəy Hüseynzadənin irsi türk dünyasının xəzinəsidir", "Türkün böyük məfkurə adamı-Əli bəy Hüseynzadə" və s.

Sərginin nümunəsini veririk:

1. Başlıq: **"Əli bəy Hüseynzadə-150"**
2. Kitablarının nümayişi.
3. Görkəmli insanların Əli bəy Hüseynzadə haqqında söylədikləri sitatlar.
4. Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.
5. Şeir parçası.
   **Ucundadır dilimin**
   **Həqiqətin əzəmi.**
   **Nə qoydular söyləyim,**
   **Nə kəsdilər dilimi!..**

## Sitatlar:

1. Bir millətin qüvvət qazanması ortaq dəyərlər arasında mənəvi bağın artmasına bağlıdır. Özəlliklə qarşılıqlı sevginin artmasına çalışilmalıdır...Məsələ bir-birimizi tanımaq, sevmək, mədəniyyət yolunda bir-birimizə yardım etmək məsələsidir...

   Əli bəy Hüseynzadə

2. "Əli bəy Azərbaycanda yox, bütün türklük qövmi özünüdərkin, istiqlal düşüncəsinin təkcə rəssamı deyil, həm də memarıdır...Məhz bu mənada nəinki Məmməd Əmin və Nəriman Nərimanov üstəlik Ziya Göyalp və Kamal Atatürk də Əli bəy Hüseynzadədən başlayır".

Y.Qarayev.

3. Girmədiyi, qarışmadığı fikir işi yapmadığı hürriyyət qovşağı qalmamışdır. Renessansın böyük düşünürləri kibi o da hər düşüncəyə uyğun hezarfən bir qafa, orkestral bir ruhdur. Doktor, ixtilalçı, ressam, ədib, jurnalist, dilçi, publisist, türkçü, cərrah, professor, şair, riyaziyyatçı, tərcüməçi, hər şey. O humanizmin özü idi. Ustad üçün hər şey, hər bilgi, hər öyrətim tək fayda üçündür. O, insanda insanı aramaq, bulmaq və üzərində durmaq. İştə öncə fikrin yüksək qayəsi".

S.N.Ergün

4. Vətən, xalq təşəbbüskeşi olan Əli bəy Hüseynzadə yaşadığı ömür kəsiyində inandığı və təbliğ etdiyi ideyaların tam həyata keçməsinin şahidi olmasa da, bu gün Azərbaycan xalqı işıqlı ziyalının arzuladığı istiqlala qovuşub, müstəqil dövlətini qurub.

Mübariz Abdullayev

4. Ümumiyyətlə, Əli bəy Hüseynzadə təkcə Azərbaycanda yox, Yaxın Şərqdə Qərb mədəniyyətini yayan ilk təbliğatçılardan biridir.

Mövsüm Əliyev

5. Əli bəy Hüseynzadə təsviri sənət tariximizi zənginləşdirərək əsərlər yaratmaqla yanaşı, incəsənət haqqında qiymətli fikirlər də qoyub gedib.

Ziyadxan Əliyev

Böyük mütəffəkkir, ictimai xadim Əli bəy Hüseynzadənin 150 illik yubileyi ilə əlaqədar keçirilən tədbirlərdən biri də xatirə gecəsidir. Xatirə gecəsinə bir çox şair və yazıçılarla yanaşı, millət vəkilləri, elm və mədəniyyət xadimlərini dəvət etmək olar. Məqsəd tədbirdə iştirak edən şair və yazıçıların böyük mütəffəkkir Azərbaycan milli ictimai fikrinin formalaşmasında, inkişafında misilsiz xidmətlər göstərmiş Əli bəy Hüseynzadənin yaradıcılığı ilə gənc nəsli tanış etməkdir. Ə.

Hüseynzadə nəinki Azərbaycanın, eyni zamanda bütün türk dünyasının dahi şəxsiyyətidir. Əli bəyin irsi xalqımızın qürur mənbəyi olaraq qalacaqdır.

Böyük fikir adamı, publisist, filosof, şair Əli bəy Hüseynzadə kiçik yaşlı uşaqları da yaddan çıxarmamışdı. Belə ki, Əli bəy Hüseynzadə balaca yaşlı uşaqlar üçün bir çox şeirlər yazmışdır ki, bunlardan “Xoruz və Ququ quşu”, “Quğu quş” və.s misal göstərmək olar.

**XORUZ VƏ QUQU QUŞU**

**(Xoruzun nəğmeyi-iqazı)**

Quqquriqu!.. Artıq yetməzmi uyğu!

Dan yıldızı doğur! Oyanır yahu!

Oyanın gözəl bir nəğmə dinləyək!

Bəğənirsən dinlə, sən ay ququ!

****************

Zənn etmə dəyərsiz bir şeydir kübrə,

O bəncə bədəl, bir yığın dürrə!

Şəmsin şüasilə suyun, kübrənin

Sayəsində gəlir feyz əkinlərə.

****************

Edər su şübhəsiz hər şeyi ehya

Yardıma gəlirsə kübrəyə ziya.

Danədə əsasən gizlidir həyat,

Müasid bir yerdə olur runüma...

*****************

Feli-hərəkətdir həyati-dünya,

Dünyadə ətalə yer yoxdur əsla!

Ay vətəndaş, sən də boş durma, çalış,

Qollarına fəqət etmə iktifa.

****************

Altundan ziyadə var dəmirdə kar!

Almasdan ziyadə kömür qiymətdar!

Bu iki ünsürü istehqar etmə:

Edilməz məmləkət bunlarsız immar!

*****************

Bahar buludunda şimşəklər çaxar...

Bir səyalət də sürətlə axar...

Zəkaya ram olur, hər işi görür,

Qaranlıq yollara məşəllər yaxar!..

Əli bəy Hüseynzadə irsini daha yaxından öyrənmək üçün F.Köçərli adına Respublika Uşaq Kitabxanasının oxucuları və kollektivi ilə ekskursiya təşkil etmək olar. Ekskursiyanı Milli İncəsənət muzeyinə təşkil etmək olar. "Əzizim Vətən yaxşı..." adı altında təşkil olunan ekskursiya Milli İncəsənət Muzeyində baş tutur. Belə ekskursiyanın təşkilində məqsəd Əli bəy Hüseynzadənin rəsm əsərləri ilə tanışlıq, onun milli təsviri sənətimizdə saldığı dərin izi dəyərləndirməyə imkan verir. Bu əsərlər haqqında soz açmadan öncə, kitabxanaçı bir qədər Əli bəy Hüseynzadənin təzadlarla dolu ömür yoluna nəzər salır...

1864-cü ilin 24 fevralında Salyanda ruhani müəllim ailəsində göz açan Əli bəy Hüseynzadənin uşaqlığı əsasən Tiflisdə keçib. Buna səbəb onun çox erkən valideynlərini itirməsi və ana babası axund Əhməd Salyaninin (1812-1884) o dövr üçün çox nüfuzlu sayılan Qafqazın şeyxülislamı vəzifəsində çalışması olub. Orta təhsilini başa vurduqdan sonra Sankt-Peterburqdakı Rəssamlıq akademiyasına qəbul olunmaq fikrində olsa da, sonradan bu qərarını dəyişir.

Əli bəy Hüseynzadə təsviri sənət tariximizi zənginləşdirəcək əsərlər yaratmaqla yanaşı, incəsənət haqqında qiymətli fikirlər də qoyub gedib. Əli bəy Hüseynzadənin bir çox yazılarından da məlum olur ki, o, hələ Tiflisdə ana babası, Qafqaz şeyxülislamı Əhməd Salyaninin himayəsində yaşayan zaman rəssamlığa

maraq göstərib. Gimnaziyadakı rəsm dərslərində əldə etdiyi bədii vərdişlər onun sonralar gözəllik duyğularını ifadə etməsinə yardımçı olub desək, yanılmarıq. Təbii ki, təsviri sənət sahəsində müəyyən hazırlığı olmasaydı, Peterburq Rəssamlıq Akademiyasına qəbul olunmağı arzulamazdı. Lakin son anda bu fikrindən daşınsa da, universitetdə oxuyarkən "açıq səma altında muzey" kimi tanınan bu şəhərdə içində gəzdirdiyi duyğuları kətana köçürmək üçün Rəssamlıq Akademiyasının axşam kurslarında iştirak etməzdi. Odur ki, onun elə də çox olmayan bədii irsinin hər nümunəsində professionallıq duyulur.

Onun bizim günlərə gəlib çatmış əl işləri əsasən portret və mənzərə yanrında əsərlərdir. Bu irsin bir qismi vaxtilə Parisdə yaşayan və bir neçə il əvvəl dünyasını dəyişən rəssam oğlu Səlimin ailəsində, bir qismi isə hazırda İstanbulda yaşayan rəssam qızı Feyzavərdədir. Çox təəssüf ki, Azərbaycanda onun cəmi üç əsəri qalıb. Bunlardan biri portret yanrında işlənib. Gördüyünüz kimi şəkillərdən birində Əli bəyin babası şeyxülislam Əhməd Salyani təsvir olunub. Əsərdə kitab rəfinin qarşısında dayanmış şeyxülislamın geyim elementləri, üzünün cizgiləri, nurani baxışları ustalıqla təsvir edilib. Portretin tünd koloriti obrazın işıqlı simasını qabarıq göstərmək istəyindən irəli gəlib. Bu əsəri ilə Əli bəy Hüseynzadə XX əsr Azərbaycan realist dəzgah rəngkarlığının əsasını qoyub. Bu portret 1900-cü ildə Türkiyədə yağlı boya ilə çəkilb.

Gördüyünüz kimi digər lövhədə məşhur Bibiheybət məscidi təsvir olunub. Bu əsər isə təxminən 1905-1907-ci illərdə işlənib. 30-illərdə insafcasına dağıdılmış məscidin real təsvirinin bizə gəlib çatması maarifpərvər milyonçumuz Hacı Zeynalabdin Tağiyevin uzaqgörənliyi sayəsində mümkün olub. Belə ki, o vaxtlar maddi çətinliyə düşən Əli bəy iki rəsm əsərini satmaq qərarına gəlbmiş. Bunu eşiidən Bakıdakı ingilis konsulu MakDonnelin mənzərəni alıb Londona göndərmək istəyib. Lakin Hacı Zeynalabdin Tağıyev "Qədim məscidimizin şəkli öz şəhərimizdə qalmalıdır" deyərək pul ilə şəkili satın alıb. Hal-hazırda bu əsər gördüyünüz Milli İncəsənət Muzeyində nümayiş olunur.

Onun üçüncü qrafik əsərində ağbirçək qadınla kiçik yaşlı qız uşağı əks olunub. Bu əsər Ə.Hüseynzadənin doğma Azərbaycanı həmişəlik tərk etdiyi 1910-cu ildə Salyanda çəkilib. O vaxt Bakıdan doğma evlərinə qohumları ilə vidalaşmağa gələn rəssam bu qısa müddətdə vaxt tapıb yaxınlarının portretini də işləyib. Yüksək professionallıqla karandaşla çəkilmiş bu qrafik lövhədə Əhməd Salyaninin həyat yoldaşı Hüsniyyə xanımın xalası qızı, 75 yaşlı Nisə nənə və Əli bəyin qardaşı İsmayıl bəyin 11 yaşlı qızı Böyükxanım təsvir olunub. Hazırda əsər Əli bəy Hüseynzadənin bacısı oğlunun ailə kolleksiyasında saxlanılır.

Bu günlərdə Füyuzat" yurnalı redaksiya şurası Əli bəy Hüseynzadənin anadan olmasının 150 illiyi şərəfinə ortaq türk ədəbi dil məsələsi ilə bağlı elmi simpozium keçirməyi qərara aldı. 2014-cü ildə 14 apreldə akademik Nizami Cəfərovun rəhbərliyi ilə nəzərdə tutulan "qiyabi dəyirmi masa simpoziumu" öz işini başa çatdırdı. Əli bəy Hüseynzadənin anadan olmasının 150 illiyini onun əsasını qoyduğu "Füyuzat" yurnalına 100 ildən sonra ləyaqətlə varislik edən müasir füyuzatçıların elmi simpozium keçirməklə qeyd etmələrini milli ideolgiyaya, milli mədəniyyətə, ədəbi irsə, həmişəyaşar xadimlərimizə sədaqətin, böyük məhəbbətin əyani sübutu kimi dəyərləndirdi:

"Burada elmi məqalələr oxundu, müzakirələr olundu, bəyənildi. Əli bəy Hüseynzadənin yubileyi münasibətilə yazılan dərin məzmunlu elmi məqalələrin toplu halda, təzə-tər yasəmən dəməti kimi "Füyuzat"ın oxucularına təqdim edilməsi fikri bəyənildi.

**ŞİƏ VƏ SÜNNİ**

Can düşməni təhdid ediyorkən tərəfeyni

Ey xacə, nədir məsələyi şiə və sünni?!

**EY ULU TANRI...**

Ey zati müəbbəd qeybdə gizli!

Ey əzəldən bəri izləri bəlli!

Ey namütənahi, qüdrətin eylər

Hər yerdə , hər canda, hər an təcəlli...

**YALAVAC**

Könül göylərindən enmədir Quran;

O qutsal kitabla yüksəldi insan;

Yalavacın könlü yücəlik dolu;

O könüldür Onu göyə çıxaran!..

**YALAVACIN QIZI**

Yalavac qızı Zəhra! Ey şanlı qadın,

Qadınlığa şərəf vermişdi adın;

Yetişdirdin iki doğruluq qulu,

Könüldə analıq örnəyi qaldın!..

Yuxarıda qeyd etdiyimiz kimi, F.Köçərli adına Respublika Uşaq kitabxanasında Əli bəy Hüseynzadənin "Seçilmiş əsərlərinin" müzakrəsini keçirmək məqsədə uyğun olardı. Tədbirdə iştirak edən görkəmli alim, filologiya elmləri namizədi Ofeliya Bayramlı ömrünün böyük bir hissəsini Əli bəy irsinin tədqiqatina həsr etmiş, onu həyata qaytarmış, ona ikinci həyat vermişdir. O. Əli bəyin əsərlərini transliterasiya edib nəşrə hazırlayarkən 2176 şərh yazmışdır. Bu isə o deməkdir ki, Ofeliya xanım əsl elm qəhrəmanıdır. Bu kitabın nəşri Əli bəy Hüseynzadənin irsinə ən böyük töhfədir.

Əli bəy irsinin ən gözəl, seçmə nümunələrinin nəşrinə maddi dəstək etmək istəyinin başqa bir səbəbi isə böyük şəxsiyyətə artan maraqdır. Biz Əli bəy Hüseynzadəni bu gün böyüməkdə olan gənc nəslə yaxından tanıtmaq üçün onun ədəbi irsinin təbliğini təmin etməliyik.

F.Köçərli adına Respublika Uşaq kitabxanasında keçirilən tədbirlərin içərisində ən maraqlı və yaddaqalan tədbirlərdən biri də ədəbi-bədii gecə və ya poeziya gecəsidir. Belə bir tədbir müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn, **"Həqiqətin böyüyü"** adlı ədəbi-bədii gecəyə kitabxanaçı bir ay qabaqcadan hazırlaşır. Kitabxanaçı tədbirə bir çox şair və yazıçılarla yanaşı ədəbiyyat müəllimlərini, kitabxanaçıları, şair və yazıçıları dəvət edə bilər. Tədbirin ədəbi hissəsi çıxış və məruzələrlə başlanır. Bədii hissədə Əli bəy Hüseynzadənin şeirlərindən parçalar və poemalarından səhnəciklər göstərilir. Səhnə gül dəstələri ilə bəzədilir. Böyük mütəfəkkir Əli bəyin portreti səhnənin divarından asılır. Əli bəy Hüseynzadənin söylədiyi sitat səhnənin divarında yer alır.

**"Çirkablara daş atmalıdır, həm də doluncaya, edilincəyə, ortadan vücudları qaldırılıncaya qədər daş atmalıdır, mümkün qədər böyük daşlar atmalıdır. Qayalar yuvarlamalıdır...Fədai lazımdır, fədai! Yuxarı sıçrayan murdarlıqlardan qorxmayan fədai! Türk qanlı, müsəlman etiqadlı, firəng fikirli, Avropa qayafəli fədai!"**

**Əli bəy Hüseynzadə**

**Aparıcılar səhnəyə daxil olur:**

**I Aparıcı:** Böyük mütəfəkkir Əli bəy Hüseynzadə Kür sahilində Salyanda doğuldu. Salyandan keçən Kür çayı onun həyatından, taleyindən də keçib getdi. Əvvəlcə bu çayın mənsəbindən mənbəyinə doğru Tiflisə üz tutdu. Bir gün ordan daha uzaqlara yollandı. Beləliklə, bu yollar onun həyatında axıracan yazıb bitirə bilmədiyi bir şeirə çevrildi:

**Ucundadır dilimin**
**Həqiqətin əzəmi.**
**Nə qoydular deyəlim,**
**Nə kəsdilər dilimi.**

**Bilirmisən sahillər**
**Nə yapdılar Vatana?**
**Nə qoydular uyusun,**
**Nə qoydular oyana!..**

**Böylə durmaq uyuşuq,**
**Rəvamı bir diriyə!?**
**Nə getmədə iləri,**
**Nə görmədə geriyə!..**

**Düşman qırar qapıyı**
**Biz içəridə qayğusuz.**
**Nə evləri ayırır,**
**Nə bir evli oluruz.**

**Ayltmadı qələmim**
**Şu türk ilə əcəmi.**
**Nə qoydular yazalım,**
**Nə qırdılar qələmi.**

Əli bəy Hüseynzadə Azərbaycan xalqının milli oyanışında əsası Mirzə Fətəli Axundzadə və Həsən bəy Zərdabi tərəfindən qoyulan milli maarifçilik hərəkatının, islamçılıq və qərbçilik ideyalarının inkişaf edilməsində müstəsna rol oynayan, millətimizin islam ümmətçiliyindən islam milliyyətçiliyinə və oradan türk millətçiliyinə keçidinin əsas ideya və əməl rəhbərlərindən biridir. O, “ türkləşmək, islamlaşmaq, avropalaşmaq” milli dirçəliş və milli istiqlal formulu ilə türkçülüyün siyasi məramnaməsini, elmi-nəzəri əsaslarını və milli istiqlal mücadiləsinin “Ana Yasası”nı hazırladı və tariximizə “türkçülüyün atası” kimi daxil oldu. Sonralar milli dövlətçilik ideologiyasına çevrilən bu üçlük bayrağımızdakı rənglərdə əbədilik qazandı və xalqın qan yaddaşına daxil oldu. Türkçülüyün böyük ideoloqu Ziya Göyalp Əli bəyi özünün ustadı sayaraq həmin üçlü qayəni belə ifadə edirdi: “Millətini tanı, ümmətini tanı, mədəniyyətini tanı!”, yəni “türk millətindənəm, islam ümmətindənəm, Batı-avropa mədəniyyətindənəm”.

**II Aparıcı:** 10 yaşlı Əli bəyin sonrakı həyatında əvəzsiz rolu ilə seçilən böyük Mirzə Fətəli onun 32 il Qafqaz şeyxülislamı olan babası Axund Əhmədi belə qiymətləndirirdi: "Müxtəlf elmlər və fənlər sahəsində astronomiya, coğrafiya, hesab, riyaziyyat, tarix, hikmət və xüsusulə fiqh sahəsində bütün Qafqaz ölkəsində Şeyxülislamın tayı-bərabəri yoxdur. O, filosof təbiətli, liberal məsləkli, tərəqqi sevən, fitrən fəsahətli bir adamdır".

Sankt-Peterburqda universitet təhsili alan Əli bəy sonradan Türkiyəyə gedərək 1890-1995-ci illərdə istanbul Universitetinin əsgəri-tibb təhsili də alır. Bir müddət həkim dermotoloq, sonralar İstanbul Universitetində elmi araşdırmalarla məşğul olan Əli bəy Hüseynzadə, eyni zamanda siyasi fəaliyyətini də genişləndirir. Nəticədə Sultan II Əbdülhəmidin həbs qərarı ilə bağlı təqiblərə məruz qaldığı üçün şəhəri tərk etməli olur və deyilənə görə, 1903-cü ildə bir hindli tacirin gəmisində gizli şəkildə Hindistana, oradan Çinə, ordan da Bakıya gəlib çıxır...

**Oxucular səhnəyə daxil olur Əli bəy Hüseynzadənin "Kələbək" şeirini söyləyirlər.**

**I Oxucu:**

**Kələbək, kələbək, gözəl kələbək!**

**Zərrin qanadında yaqutdan bənək!**

**Çiçəkdən çiçəyə uçur, durursan,**

**İşin, gücün yalnız gözəli sevmək.**

*******************

**Rəngi, rayihəyi iyi anlarsan,**

**Yarpaqda, qönçədə murad ararsan.**

**Çiçəkdə bulursan cilveyi-hüsnü!**

**Hüsn ilə pərvərdə bir bəxtiyarsan!**

********************

**Həyatın zövqünü duyarsan əlbət!**

**Anlamırsan fəqət nədir məhəbbət?**

**Nədir hüsnü bəha? Nədir bu həyat,**

**Ki hüsnü bəhaya göstərir rəğbət?**

****************

**Nədən həyat olur məmata müncər?!**

**Hələ səndə böylə sürətlə keçər!**

**Bir mövsimdən fəzlə yaşayamazsan**

**Yaşasan da yenə ölüm müqəddər!**

*****************

**İstərdim dünyada ölüm olmasın!**

**Hüsnü an, məhəbbət, zəval bulmasın!**

**Aşıq də, məşuq da yaşasın daim**

**Kələbək ölməsin, çiçək solmasın!**

**II Aparıcı:** Publisistik fəaliyyətlə yanaşı, Əli bəy Hüseynzadə pedaqoji sahəyə də xüsusi diqqət ayırırdı. 1907-ci ilin avqustun 25-dən sentyabrın 4-dək Bakıda keçirilən Azərbaycan müəllimlərinin II qurultayının təşkili və keçirilməsində onun da müstəsna rolu vardı. "Füyuzat" məcmuəsi bağlandıqdan sonra Əli bəy 1908-1910-cu illərdə "Səadət" (Ruhani Xeyriyyə Cəmiyyətinin Bakıda təsis etdiyi "Səadət") məktəbində əvvəlcə türk dili və ədəbiyyat müəllimi, sonra həmin məktəbin müdiri oldu.

Zaman sürətlə dəyişirdi və "Füyuzat"ın qapadılmasından az sonra Sultan II Əbdülhəmid də öz taxt-tacı ilə vidalaşmalı oldu. Ardınca keçmiş inqilabçı dostlarının gənc türklərin dəvətilə Əli bəy 1910-cu ilin sonunda Türkiyəyə köçmək qərarına gəlir.

Əli bəy Hüseynzadə Bakı-İstanbul marşurutu ilə səfəri zamanı Tiflisdə dəmiryol vağzalında böyük ədib Cəlil Məmmədquluzadə ilə görüşür. Sovet ədəbiyyatşünaslığında molla nəsrəddinçilərlə füyüzatçılar həmişə üz-üzə qoyulsa da, C. Məmmədquluzadə Əli bəyin ictimai-siyasi fəaliyyətini yüksək qiymətləndirirdi: "Əli bəy Hüseynzadə kimi bir yazı ustadı mən tək bir cavan yazıçıya yazı barəsində dediyi sözü mən ciddi bir söz hesab edəm gərək".

Türkiyəyə dönən Əli bəy Hüseynzadə İstanbul Universitetinin professoru kimi universitet bağlanana qədər (1933) pedaqoji fəaliyyətlə məşğul olur. Onun vaxtı ilə Avropa dəyərləri ilə bağlı söylədiyi fikirlər indi də aktuallığını itirməyib: "Biz avropalıların ədəbiyyatlarına, sənayelərinə, elm və maariflərinə, kəşfiyyat və ixtiralarına müraciət etmək istəyirik, özlərinə deyil! Biz istəyirik ki, islam ölkəsinə onların beyinləri girsin, boğazları, mədələri girməsin. Biz istəyirik ki, ölkəmiz onların beyinlərini həzm etsin, yoxsa mədələrində həzm olunmasın..."

Sonrakı dövrdə Əli bəy Hüseynzadə Azərbaycanda iki dəfə olur. 1918-ci ildə Azərbaycan Xalq Cumhuriyyəti hökuməti müvəqqəti olaraq Gəncədə fəaliyyət göstərdiyi dövrdə Əhməd bəy Ağaoğlu, Axund Yusif Talıbzadə ilə birlikdə dövlət quruculuğu məsələlərini Azərbaycanın siyasi və hökumət rəhbərləri ilə müzakirə etmək üçün və 1926-ci ildə Bakıda keçirilən türkoloji qurultayda Ə.Hüseynzadənin "Qərbin iki dastanında türk" adlı məruzəsi o dövrdə Bakıda nəşr olunub. 1926-cı il martın 25-də Vətəndən sonuncu dəfə ayrılan Əli bəy Hüseynzadə bir müddət Atatürkə sui-qəsddə iştirak iddiası ilə Ankarada məhkəmə qarşısında dayanmalı olsa da, az sonra o, sərbəst buraxılır. Ancaq Atatürk 1938-ci ildə dünyasını dəyişəndə Əli bəy ən gözəl şeirlərindən birini yazır: "Ondan öncə və sonra".

**Kamal günündən öncə**

**Ellər bizim deyildi.**

**Günlər olmuşdu gecə**

**Yollar bizim deyildi.**

**Tarix unudulmuşdu,**

**Yazılar pozulmuşdu.**

**Oxuyanlar bayquşdu,**

**Dillər bizim deyildi.**

Əli bəy Hüseynzadənin mətbuatda dərc olunan son yazısı 15 yanvar 1940-cı ilə aiddir. Şeir Ərzincan zəlzələsinə həsr olunsa da, Əli bəy Hüseynzadənin yorulmaz tədqiqatçılarından olan Azər Turan yazır ki, onu həm də Əli bəyin vəsiyyəti kimi də qəbul etmək olar:

**Ərzincanda bir quş var,**

**Dalda yuva arıyor.**

**Qanadından qan sızar,**

**Dərdə dəva arıyor.**

**Gördü fəci bir ölüm**

**Iraq yerdən gələn var.**

**Üzərində kəfən: Qar,**

**Ya rəbb, nədir bu zülüm?**

Bu hadisədən az sonra 1940-cı il martın 17-də Əli bəy İstanbulda dünyasını dəyişir. Və onun məzarı şəhərin Qaracaəhməd məzarlığında dəfn olunur.
**I aparıcı:** Sonda Əli bəyin özündən sonra yaşayan ideyaları və övladları qaldı. Əslən çərkəz qızı olan Ədhiyyə xanımla icdivacdan oğlu, məşhur rəssam Səlim Turan, qızları Saidə və Feyzavər dünyaya gəliblər. Yüksək təhsil alan övladlarından böyük qızı Saidə bəyim 2002-ci ildə, Səlim Turan 1994-cü ildə dünyasını dəyişiblər. Üçüncü övladı 1920-ci ildə doğulan Feyzavər bəyim hal-hazırda İstanbulda yaşamaqdadır.

Tədbirin sonunda onu da qeyd etmək yerinə düşərdi ki, "Əli bəy Hüseynzadənin 150 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Prezidentinin 21 yanvar 2014-cü il tarixli sərəncamı böyük tarixi əhəmiyyətə malikdir. Əli bəy Hüseynzadə milli mədəniyyət və ictimai-siyasi fikir tariximizdə təkcə dahi mütəfəkkir şəxsiyyət kimi deyil, eyni zamanda böyük maarifçi, həkim-tibb professoru, rəssam, musiqişünas, tərcüməçi idi. Bu mənada Əli bəyin müasiri, görkəmli tarixçi Yusif Akçuraoğlu haqlı olaraq yazırdı ki, "Əfsanəvi Əli bəy dünyanın bütün dillərini, elm və fənlərin hər növünü, ədəbiyyat və incəsənətin hər şöbəsini tamamən əhatə etmiş və tətbiqə müvəffəq olmuş fövqəlbəşər idi..."
Sonda oxucular Əli bəy Hüseynzadənin "Təraneyi-səhər" adlı şeirini söyləyirlər.

**Zülmətü şər bulsa da bir dəm zəfər,**
**Pərtövə hökm etsə də zülmət əgər,**
**Sönsə də ənvari-kəmalü hünər,**
**Qəm yemə, səbr et, bu da yahu keçər!**

**Həqqü ədalətdən əsər yoxsa da,**
**Harisi-qanun bir ər yoxsa da,**
**Zülm edənə qarşı sipər yoxsa da,**
**Qəm yemə, səbr et, bu da yahu keçər!**

**Millətə, milliyyətə, hürriyyətə,**
**Aşiq olan uğrasa da möhnətə,**
**Yari-vətən düşsə də gər qürbətə,**
**Qəm yemə, səbr et, bu da yahu keçər.**

**S O N**

## Ədəbiyyat siyahısı:


1. Əli bəy Hüseynzadə. Seçilmiş əsərləri. Baki.:"Şərq-qərb", 2007, 480 s.
2. Əli bəy Hüseynzadə. Ebedi güzellikler. Bakı.: "Azərbaycan", 2008, 91 s.

3. Mərdanov M. Türkçülüyün atası, böyük maarifçi : Əli bəy Hüseynzadə // El. - 2010. – N 06. - S. 7-16
4. Zakirqızı A. Azərbaycan alimlərinin türkçülük tarixində xidmətləri // Azərbaycan dili və ədəbiyyatı tədrisi. - 2013. - № 01. - S. 57-63

5. Turançılıq məfkurəsinin böyük siması, üçrəngli bayrağımızın ideya müəllifi // Mədəniyyət. - 2011. - 25 fevral. - N 15. - S. 12.

6. Qasımova E. İncəsənətimizdə Əli bəy imzası // Füyuzat. - 2011.

7. B. Zəkulla. Azərbaycan romantizmi // Ədəbiyyat qəzeti. - 2011. - 19 avqust. - N 31. - S. 4.

8. Qurbanov A. Əli bəy Hüseynzadə və Füyuzat // Füyuzat. - 2012. - № 6. - S. 14-19.

7. Əliyeva İ. Vətəndən uzaqlarda vətən eşqi ilə yaşadı // Azərbaycan. - 2010. - 22 iyul. - N 156. - S. 4.

8. T. Azər. Tarixi - ədəbiyyati - türki // Ədəbiyyat qəzeti. - 2009. - 13 mart. - S.



**Redaktor:** **Şəhla Qəmbərova - F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru**

**Tərtibçi:** **Könül Səmədzadə-F.Köçərli adına Respublika Uşaq Kitabxanası Elmi metodika şöbəsinin baş kitabxanaçısı**

**Korrektor:** **Ruhiyyə Məmmədli-F.Köçərli adına Respublika Uşaq Kitabxanasının elmi-metodika şöbəsinin müdiri**